# "Azərbaycan İrəvanı" sənədli filmin yaddaşında



**Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondunun dəstəyi ilə "Fortis Construction" şirkətinin layihəsi çərçivəsində ərsəyə gətirilmiş "Azərbaycan İrəvanı" filmində İrəvan tarixindən təxminən yüz il əvvəlki dövrünə "səyahət" edilir.**

Təqdimat mərasimini açan Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva tarixi irsimizin qorunmasına yönəlmiş bu layihəyə göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna təşəkkürünü ifadə edib. Filmin müəllifi və aparıcısı Fuad Axundov bildirib ki, bu film onların yaradıcı qrupunun 10-cu layihəsidir. Bu dəfə əsas məram İrəvanın qədim Azərbaycan şəhəri olduğunu əsaslı şəkildə göstərməkdir.

Filmin elmi məsləhətçisi, Gürcüstan Milli Muzeyinin Tarix və Etnoqrafiya İnstitutunun direktoru, "İrəvan xanlığı" kitabının müəllifi Eldar Nadiradze çəkiliş prosesinin özəlliklərindən bəhs edib: "Mən belə bir nəticəyə gəlmişəm ki, Azərbaycan xalqı dünya sivilizasiyasının xəzinəsində görkəmli yer tutan möhtəşəm mədəni irsin yaradıcısıdır".

Daha sonra rejissoru Mirsadıq Ağazadə, prodüseri Səbinə Uluxanova olan film nümayiş olunub. Ekran əsəri vaxtilə çiçəklənən İrəvan xanlığının və İrəvan qalasının demək olar ki, tamamilə məhv olunmuş Azərbaycan mədəni, tarixi və insan amili irsi ilə birlikdə müasir dövrünün təxminən yüz illik tarixindən bəhs edir. Ekran əsəri Azərbaycan subtitrləri ilə rus dilində hazırlanıb.

***XQ***

Xalq qəzeti.- 2024.- 21 aprel, № 80.- S.10.